# Sələflər və xələflər: Nəvai və Füzuli

**Ataəmi Mirzəyev**
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ataemi@rambler.ru
https://orcid.org/0000-0002-6136-2908

**Annotasiya.** Məqalədə Azərbaycan-özbək ədəbi əlaqələri tarixinə Əlişir Nəvai yaradıcılığı fonunda nəzər yetirilir. Qeyd edilir ki, hər bir sənətkarın yaradıcılığı sələf-xələflik münasibətləri fonunda araşdırılmalıdır. Çünki sənətkarın qiyməti onun əsərləri ilə sonra yaranan ədəbiyyatın inkişafına göstərdiyi təsirlə ölçülür. Nəvainin bir sənətkar kimi yetişməsində Azərbaycan ədəbiyyatının böyük rolu olmuşdur. O, Nizaminin "Xəmsə"sinə cığatay türkcəsində tam cavab yazan bir sənətkar kimi ədəbiyyat tarixində yer tutur. Nəvai Azərbaycan ədəbiyyatından bəhrələndiyi kimi, sonrakı dövrdə Azərbaycan ədəbiyyatında Nəvai təsiri də güclü olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan-özbək ədəbi əlaqələri tarixində Nəvai yaradıcılığı xüsusi mərhələ təşkil edir. Bir sıra sənətkarlar kimi, Füzuli yaradıcılığında da Nəvai təsiri güclüdür və bu təsir müxtəlif baxımlarda təzahür edir. Hər iki sənətkar arasındakı sələf-xələflik münasibətləri həm lirik, həm də epik sahədə müşahidə olunur. Füzuli bir sıra lirik şeirlərini Nəvai qəzəllərindən təsirlənərək ona cavab və nəzirə kimi yazmışdır. Eləcə də hər iki şairin "Leyli və Məcnun" poeması arasında da uyğunluqlar özünü göstərir ki, bu da onlar arasındakı sələf-xələflik münasibətlərini şərtləndirir. Məqalədə konkret nümunələr əsasında Nəvai və Füzuli yaradıcılığı arasındakı bağlılıq özünün təsdiqini tapır. Nəticə olaraq göstərilir ki, Azərbaycan-özbək ədəbi əlaqələri təkcə Füzuli yaradıcılığının özbək ədəbiyyatına təsiri ilə məhdudlaşmamalıdır. Nəvai yaradıcılığının Azərbaycan, o cümlədən Füzuli irsinə təsiri xüsusi öyrənilməli, hər iki sənətkarın yaradıcılığında nəzərəçarpan sələf-xələflik münasibətləri tədqiqat obyektinə çevrilmə-lidir.

**Açar sözlər:** Nəvai, Füzuli, "Xəmsə", "Divan", sələf, xələf

http://dx.doi.org/10.29228/edu.145
**Məqaləyə istinad:** Mirzəyev A. (2020) *Sələflər və xələflər: Nəvai və Füzuli.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 73-79
**Məqalə tarixçəsi:** göndərilib – 04.05.2020; qəbul edilib – 14.05.2020

# Predecessors and followers: Navai and Fuzuli

**Ataemi Mirzayev**
Doctor of Philological Sciences, Institute of Literature
named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: ataemi@rambler.ru
https://orcid.org/0000-0002-6136-2908

**Abstract.** The article involves in Azerbaijan-Uzbek literary relations in the context of the creativity of Alishir Navai. It is noted that the creativity of each master should be

researched in the background of predecessor-follower relations. Because value of the master is measured by his influence on the development of literature created after him. The Azerbaijani literature has a great role in growing Navai as a master. It is known Navai also occupies a place as a master who wrote an equivalent of “Khamsa” by Nizami in in Chagatai turkish. As Navai benefited from the Azerbaijani literature, Navai's influence in Azerbaijani literature was strong in the following period. It is not accidental Navai’s creativity is a special stage in the history of Azerbaijan-Uzbek literary relations. As some masters, Navai’s influence is also strong in Fuzuli’s creativity and Navai’s influence appears in Fuzuli’s creativity in different ways. The relations of predecessor-follower between both of them are observed both in lyrical and epic branch. Fuzuli had written his some lyrical poems as an imitative poem under the influence of Navai’s ghazals. At the same time, there are similarities between the poem “Leyli and Majnun” by both poets that it points predecessor-follower relations between them. The article proves the affinity between Navai and Fuzuli’s creativity on the basis of concrete examples. As a result it is showed that the Azerbaijan-Uzbek literary relations don’t limit with the influence of Fuzuli’s creativity on the Uzbek literature. It should be studied the influence of Navai to Azerbaijan, as well as on Fuzuli’s heritage, and predecessor-follower relations in both poets’ creative work should become an object of research.
**Keywords:** Navai, Fuzuli, “Khamsa”, “Divan”, predecessor, follower

http://dx.doi.org/10.29228/edu.145
**To cite this article:** Mirzayev A. (2020) *Predecessors and followers: Navai and Fuzuli.* «Comparative Literature Studies», Issue I, pp. 73-79
**Article history:** received – 04.05.2020; accepted – 14.05.2020

## Giriş / *Introduction*

Tarixdə elə ədəbi şəxsiyyətlər vardır ki, mənsub olduğu xalqın ədəbiyyatını onsuz təsəvvür etmək mümkün deyil. Onun yaradıcılığı bütövlükdə böyük bir xalqın ədəbiyyatını təmsil edir; onsuz ədəbiyyatın forma, məzmun, mövzu və mündəricə zənginliyini, inkişaf meyillərini və təkamül tarixini bütün yönləri ilə öyrənmək imkan xaricindədir. Türk dünyasının iki ədəbi şəxsiyyəti – Əlişir Nəvai (1441-1501) və Məhəmməd Füzulinin (1494-1556) yaradıcılığı bu deyilənləri özündə tam şəkildə təcəssüm etdirir.

Məlumdur ki, hər bir sənətkarın böyüklük dərəcəsini müəyyən edən ən mühüm amillərdən biri onun özündən sonrakı ədəbiyyata təsiridir. Hər hansı bir ustad sənətkarın qiyməti onun özündən sonra yaranan ədəbiyyatın inkişafına göstərdiyi təsirlə ölçülür. Əsl sənətkar öz yaradıcılığı ilə ədəbiyyata elə bir ruh, elə bir istiqamət gətirir ki, bu, yaranmaqda olan ədəbiyyatın inkişafını yeni bir məcraya yönəldir, bir növ onun sonrakı inkişaf meyillərini müəyyənləşdirmiş olur. Nəvai və Füzuli məhz belə ədəbi şəxsiyyətlərdəndir. Özbək dili və ədəbiyyatı tarixində Əlişir Nəvainin yeri necə müəyyənləşirsə, Azərbaycan dili və ədəbiyyatı tarixində də Füzulinin mövqeyi o dərəcədədir.

Bəllidir ki, hər hansı bir sənətkarın ədəbi irsi onun yaradıcılığında sələf-xələflik münasibətlərinin öyrənilməsi kontekstində daha dəqiq qiymətini almış olur. Əks təqdirdə, şairin həqiqi dəyəri verilə bilməz. O da qeyd olunmalıdır ki, həm Nəvai, həm də Füzuli irsi indiyə qədər bu aspektdə gərəyincə araşdırılmamışdır. Doğrudur, bu məsələyə həm Azərbaycan, həm də özbək alimləri tərəfindən bir sıra tədqiqatlar həsr edilmişdir. Ancaq həmin araşdırmalarda daha çox Füzuli yaradıcılığının özbək ədəbiyyatına təsiri məsələsi diqqət mərkəzində olmuşdur. Füzuli yaradıcılığında Nəvai təsirinə o qədər

də diqqət yetirilmədiyi üçün problemin qoyuluşu və həlli baxımından fundamental araşdırmalara ehtiyac böyükdür.

## Əsas hissə / *Main part*

Azərbaycan-özbək ədəbi əlaqələrinin genişlənməsində Nizami "Xəmsə"sinın rolu danılmazdır. Əlişir Nəvainin Nizami "Xəmsə"sinə cavab olaraq cığatay türkcəsində ilk dəfə "Xəmsə" yazması böyük ədəbi hadisə sayılır. Təsadüfi deyil ki, akademik Həmid Araslı bu barədə yazırdı: "Nəvai Azərbaycan ədəbiyyatı ilə ən çox ölməz "Xəmsə"si ilə bağlıdır" [1, s.661].

Azərbaycan-özbək ədəbi əlaqələri təkcə Nizami ilə bitmir. XV əsrin sonlarından artıq Nəvainin timsalında özbək poeziyasının Azərbaycan ədəbiyyatına göstərdiyi təsir özünü qabarıq göstərir. Bu baxımdan bir sıra sənətkarlar kimi, Füzuli yaradıcılığında da Nəvai şeirinin təsiri xüsusi çəkiyə malikdir. Azərbaycan-özbək ədəbi əlaqələri tarixində Nəvai–Füzuli yaradıcılığı yeni bir mərhələ təşkil edir. Təsadüfi deyil ki, Füzulinin müasiri olan Lətifi 1546-cı ildə tamamladığı təzkirəsində şair haqqında bunları yazır: "Nəvai tərzinə yaxın cazibəli bir tərzi və qəribə bir üslubu vardır" [2, s.180]. Eləcə də yenə Füzulinin müasiri Əhdi Bağdadinin 1563-cü ildə bitirdiyi "Gülşəni-şüəra" təzkirəsinin Füzuli haqqında olan hissəsində oxuyuruq: "...Göftari-Nəvai-ayini türkani-moğol yanında məzkur..." [3, s.241].

Füzuli yaradıcılığında Nəvai təsiri özünü müxtəlif baxımlardan göstərir. Nəzərə çarpan sələf-xələflik münasibətləri hər iki sənətkarın lirikasında özünü daha qabarıq göstərir. Təsadüfi deyil ki, Füzulinin türkcə divanının tənqidi mətnini hazırlamış türk alimi Əbdülbaqi Gölpınarlı yazırdı: "Füzuliyə təsir edən türk şairlərinin başında Nəvai gəlir" [4, s.XLIII]. Alim bu qeydindən sonra Füzulinin lirik şeirlər divanından qafiyə, rədif, vəzn və ahəng baxımından Nəvai irsi ilə səsləşən bir sıra beytlər təqdim edir. Həmin nümunələrə formal baxımdan yanaşan müəllif sadəcə faktları verir, onlarda ifadə olunan fikir, məna tutumu, ifadə tərzi, qoyulan məsələyə münasibət, onun həlli yönünə heç bir münasibət bildirmir. Şübhəsiz ki, alimin təqdim etdiyi beytlər hər iki şairin lirik şeirlər divanı arasındakı bağlılığın əyani göstəricisidir və həmin beytlərin sayını kifayət qədər artırmaq da mümkündür. Verilən nümunələrin təhlili, ifadə olunan fikir və məna tutumunun müqayisəsi onlar arasındakı bağlılığı daha aydın üzə çıxarır. Örnək olaraq aşağıdakı beyti nəzərdən keçirək. Nəvaidə:

*Xurram oldi boğu bir quldin ichimda qam xanuz,*
*Kuldi xar yön ğonchavu kunqlum ishi motam xanuz [5, s.227].*

Füzulidə:

*Aləm oldu şad səndən, mən əsiri-qəm hənuz,*
*Aləm etdi tərki-qəm, məndə qəmi-aləm hənuz [6, s.143].*

Nəvaidə beytin məzmunu belədir: bağ və yer üzü güldən şad oldusa, içimdə (canımda) hələ qəm var. Hər yer güldü, amma könlümün işi hələ matəmdir. Füzulidə isə həmin beytin nəsr variantı belədir: Aləm səndən (səninlə, sənin lütfünlə) şad oldu, mən (isə) hələ də qəm əsiriyəm. Aləm qəmi tərk etdi, məndə (isə) aləmin qəmi vardır.

Göründüyü kimi, hər iki beytdə ifadə olunan fikir bədii təzadlar üzərində qurulmuşdur. Bu təzadlar Nəvaidə təbiətlə aşiqin içindəki qəm, kədər arasında yaradılır. Hər yer gül-çiçəkdən gülsə də, aşiqin könlü matəm içindədir. Burada aşiqin qəm dəryasına batmasının səbəbi verilməmişdir, sadəcə gül fəslinin – təbiətin təsviri ilə qəm içində olan aşiqin vəziyyəti qarşılaşdırılmışdır. Füzulinin beytində isə Nəvaidə qoyulan məsələ bir növ inkişafda verilir. Burada lirik qəhrəmanın qəm dəryasına batmasının səbəbi göstərilir. Beytin anlamına görə, bütün aləmi sevindirən gözəl, aşiqə biganə olduğu üçün aşiq hələ də qəm əsiridir. Eləcə də bütün aləm sevgilisinin lütfü ilə qəmi tərk

etdiyi halda, aşiqdə bütün aləmin qəmi vardır. Yəni iztirab içində olan aşiq sevgilisindən vüsal istəsə də, hicran görür; bu səbəbdən sevgilisinin lütfü ilə aləmin tərk etdiyi qəm sevincdən məhrum olan aşiqin ürəyinə dolmuşdur.

Beləliklə, müqayisə göstərir ki, hər iki beyt arasında nəzərəçarpan bağlılıq təkcə formal xarakter daşımır, məzmun baxımından da müşahidə edilir. Füzuli divanından təqdim olunan bu nümunə də həm məzmun, həm də poetik cəhətdən Nəvai şeirindən seçilir və təqlid deyil, orijinal səciyyə daşıyır.

Nəvainin Nizami təsiri ilə yazdığı "Xəmsə"yə daxil olan əsərləri ilə tanışlıq göstərir ki, o, təqlid yolu ilə getməmiş, yeni bir formatda, yeni bir quruluşda, yeni bir məzmun və keyfiyyətdə orijinal sənət örnəkləri yaratmışdır. Həm lirik, həm də epik yaradıcılığında Nəvai yolu ilə gedən Füzuli də sənətə bu tələblə yanaşmış, özünəməxsus xüsusiyyətləri ilə seçilən əsərlər qələmə almışdır. Bu baxımdan şairin "Leyli və Məcnun" məsnəvisi diqqəti çəkir. Belə bir mövzuya girişməyin məsuliyyətini yaxşı dərk edən Füzuli özündən əvvəl "Leyli və Məcnun" yazan sənətkarları hörmətlə xatırlayır:

*Şad etmiş idi Əbunüvası*
*Haruni-xəlifənin ətası.*
*Bulmuşdu səfayi-dil Nizami,*
*Şirvanşəhə düşüb girami.*
*Olmuşdu Nəvaiyi-süxəndan*
*Mənzuri-şəhənşəhi-Xorasan [7, s.30].*

Nəvai "Leyli və Məcnun" mövzusuna müraciətinin səbəbini belə izah edir:

*Chun forsi erdi nukta shavqi,*
*Ozraq edi anda turk zavqi.*
*Ul til bila nazm bo'ldı malfuz –*
*Kim, fors anglar o'ldi mahzuz.*
*Men turkcha boşlabon rivayat,*
*Qildim bu fasonani hikoyat –*
*Kim, shuhrati chun jahong'a to'lg'ay,*
*Turk eliga dog'i bahra bo'lg'ay.*
*Nevchunki, bukun johanda atrok.*
*Ko'ptur xushtab'-u sofi idrok [8, s.292-293].*

Nəvaidən təxminən 53 il sonra "Leyli və Məcnun" məsnəvisini qələmə alan Füzuli də əsərin yazılma səbəbini belə əsaslandırır:

*Mən xəstəyi etdilər nişanə*
*Bir rəng ilə tiri-imtəhanə.*
*"Lütf eylə! - dedilər, - ey süxənsənc!*
*Faş eylə cəhanə bir nihan gənc!*
*Leyli-Məcnun əcəmdə çoxdur,*
*Ətrakdə ol fəsanə yoxdur.*
*Təqrirə gətir bu dastanı,*
*Qıl tazə bu əski bustanı" [7, s.40].*

Göründüyü kimi, hər iki sənətkarın "Leyli və Məcnun" mövzusuna müraciəti, demək olar ki, eyni məqsədə xidmət edir. Mövzunun türklər içərisində də yayılması, türklərin də ondan zövq alması

hər iki əsərin yazılmasında əsas məqsəd olmuşdur. Çünki bundan əvvəl yaranan əsərlər fars dilində yazıldığından türklər bu mövzunun zövqündən kənarda qalırdı.

Eyni vəziyyəti Nəvainin "Nəsayimül-məhəbbə min şəmayimil-fütüvvə", "Ərbəin", "Nəzmül-cəvahir" və digər əsərlərinin yazılma səbəbini izah edərkən də görürük. Şair mənsub olduğu xalqın fars dilində yazılmış əsərlərin faydasından kənarda qalmasını istəmədiyini bildirir və bu məqsədlə yeni bir əsər qələmə alırdı. Şairin "Ərbəin" əsərinə yazdığı müqəddiməyə diqqət edək:

*Forsiydonlar aylabon idrok,*
*Oriy erdi bu naf`din atrok.*
*İstadimki, bu xalq ham bori*
*Bo'lmag'aylar bu naf'din* oriy *[9, s.43].*

Füzuli də "Hədisi-ərbəin" tərcüməsinin müqəddiməsində əsərin yazılma səbəbini belə izah edir: "ümumfeyz üçün tərcümeyi-türki olunur" [9, s.46]. Eyni vəziyyəti şairin "Hədiqətüs-süəda" əsərinin yazılma səbəbi hissəsində də görürük.

Göründüyü kimi, hər iki sənətkarın məqsəd və niyyəti göz qabağındadır. Həm Nəvai, həm də Füzulinin eyni mövzuya müraciətetmə səbəbi Peyğəmbər kəlamlarına olan hörmət və ehtiram, onların əxlaqi-tərbiyəvi əhəmiyyəti və xalq arasında belə mövzulara olan tələbatın çoxluğu ilə bağlı idi.

Belə ki, hər iki sənətkarın "Leyli və Məcnun" poeması sələf-xələflik münasibətlərinin öyrənilməsi baxımından diqqəti cəlb edir. Füzulinin "Leyli və Məcnun" poemasını yazarkən, Nəvainin adını çəkməsi onun Nəvainin "Leyli və Məcnun"undan xəbərdar olduğunun əyani sübutudur. Eləcə də hər iki əsər arasında da müəyyən oxşar paralellər özünü göstərir ki, bunun da xüsusi tədqiqata ehtiyacı vardır. Hər iki məsnəvinin yazılma səbəbi eynidir; süjet və kompozisiya baxımından da onlar arasında uyğunluqlar çoxdur. Nəvainin əsərində hər bölmənin başlığının nəsrlə adlandırılması Füzulinin "Leyli və Məcnun"unda özünü daha yeni bir formatda göstərir. Belə ki, əgər Nəvaidə həmin başlıqlar adi nəsr cümləsi ilə verilirsə, Füzulidə bir-biri ilə qafiyələnən cümlələr şəklindədir. Nəvaidə: *Xazon yeli bog' zeboları hayoti sham'in o'churganda Layli hayoti bahorining gullarini ajal xazoni tundbodi ko'kka sovurub Macnunnung dog'i bulbuli ruhi badan qafasin gulbun uzra tashlab, ul havolang'on gul bargi so'ngincha havo tutqoni"* [8, s.259]. Füzulidə: *"Bu, Leylinin bahari-ömri xəzana irdigidir"* [7, s.208] və ya *"Bu, Leylinin anasına vəsiyyət etdigidir və dust yadi ilə dünyadan getdigidir"* [7, s.210].

Füzulinin "Leyli və Məcnun" məsnəvisinə qədər anadilli epik şeir nümunələrində fəsil başlıqları, adətən, fars dilində adlandırılırdı. "Dastani-Əhməd Hərami"də, "Yusif və Züleyxa"larda (Mustafa Zərir və Suli Fəqih), "Vərqa və Gülşah"da (Yusif Məddah), "Dəhnamə"də (Xətayi), eləcə də Füzulinin "Bəngü Badə" məsnəvisində eyni vəziyyət müşahidə edilir. Lakin Füzulinin "Leyli və Məcnun"unda artıq yeni bir forma özünü göstərir, yəni fəsil başlıqları ana dilində qafiyəli nəsr cümlələri şəklində verilir ki, bu da sonralar epik şeirdə (Məsihinin "Vərqa və Gülşa" məsnəvisində) bir növ ənənəyə çevrilmiş olur. Şübhəsiz ki, epik şeirdə fəsil başlıqlarının nəsr şəklində verilməsi Füzulinin "Leyli və Məcnun"u üzərində Nəvai təsirinin göstəricisi hesab edilməlidir.

Eləcə də Füzulinin "Leyli və Məcnun"unda anasının Leyliyə nəsihəti, anasının Məcnuna nəsihəti hissələri ilə Nəvainin əsərində yer alan nəsihətlər (atasının Məcnuna nəsihəti və s.) arasında da səsləşmələr çoxdur. Hər iki əsər arasındakı uyğunluqlar bir-biri ilə səsləşən misra və beytlərdə də müşahidə olunur ki, bunlar da xüsusi bir tədqiqatın mövzusudur.

**Nəticə / *Conclusion***

Beləliklə, bütün bunlar göstərir ki, Azərbaycan-özbək ədəbi əlaqələrinin yaranması və inkişafında Nəvai yaradıcılığının xüsusi yeri vardır. Belə ki, XV yüzillikdən etibarən Azərbaycan ədəbiyyatında Nəvai ənənəsindən yaradıcı şəkildə istifadə olunmuş, sonrakı dövrlərdə də davam etmişdir. Yaradıcılığında Nəvai sənətinə böyük ehtiram göstərən Füzuli irsi bu günə kimi Azərbaycan və özbək alimləri tərəfindən başqa bir aspektdə araşdırılmışdır. Yəni daha çox Füzuli şeirinin özbək ədəbiyyatına göstərdiyi təsir əsas tədqiqat mövzusuna çevrilmişdir. Lakin hər iki şairin irsi ilə tanışlıq göstərir ki, Nəvai və Füzuli yaradıcılığı sələf-xələflik münasibətlərinin öyrənilməsi baxımından da xüsusi tədqiq olunmalı, bəhrələnmənin yeri və dərəcəsi müəyyənləşdirilməlidir. Füzuli yaradıcılığı ilə Nəvai sənəti arasındakı sələf-xələflik münasibətlərinin yeni təfəkkür işığında bütün yönləri ilə araşdırılması ədəbiyyatşünaslığımızın qarşıdında duran vəzifələrdəndir.

**Ədəbiyyat / *References***


1. H.Araslı. Nəvai və Azərbaycan ədəbiyyatı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, “Gənclik”, 1998.
2. Latifi Tezkiresi. Yayına hazırlayan: Dr.Mustafa İsen. Ankara, “Akçağ” yayınları, 1999.
3. Gülşen-i Şu’ara (Bağdatlı Ahdi). Yayına hazırlayan: Süleyman Solmaz. Denizli, 2009.
4. Fuzuli Divanı. Hazırlayan: Abdulbaki Gölpınarlı. Beşinci baskı. İstanbul: İnkilap Kitabevi, 2005, I-CXLI x.
5. Navoiy Alisher. Xazoyin ul-maoniy. Birinchi devon. Faroyib us-siğar. Toshkent, “Tamaddin”, 2011.
6. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə, I cild. Bakı, “Şərq-Qərb”, 2005.
7. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə, İİ cild. Bakı, “Şərq-Qərb”, 2005.
8. Navoiy, Alisher. Leyli va Majnun: dostan. Toshkent: G‘afur G‘ulom nomidagi nashriyot-matbaa ijodiy uyi, 2020.
9. A.Mirzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında “40 hədis”. Bakı, “Sabah”, 1997.


## Предшественники и преемники: Навои и Физули


**Атаеми Мирзаев**
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви. Азербайджан
E-mail: ataemi@rambler.ru



**Резюме.** В статье рассматривается история азербайджанско-узбекских литературных связей на основе творчества Алишира Навои. Отмечается, что творчество какого-либо поэта требует исследования на фоне преемственности предыдущих и последующих поколений. Потому что ценность творца измеряется влиянием его произведений на развитие созданной после него литературы. В творческом становлении А.Навои большая роль принадлежит азербайджанской литературе. Он занимает важное место в истории литературы как художник, написавший полное произведение на тюркском чагатайском в ответ на «Хамсэ» Низами. Как Навои опирался на азербайджанский язык, так в последующие периоды в азербайджанской литературе явно сильно влияние Навои. Не удивительно, что в истории азербайджанско-узбекских литературных связей творчество Навои составляет особый период. Как на целый ряд поэтов, Навои сильно повлиял на творчество Физули и это влияние рассматривается с различных точек зрения. Отношения предшественников и преемников прослеживаются как в

области лирической, так и эпической. Вдохновляясь газалями Навои, Физули написал в ответ ряд лирических стихов – назире. И в поэмах «Лейли и Меджнун» обоих авторов можно заметить сходство, что обусловлено отношениями предшественника и преемника. В статье на материале конкретных образцов творчества находит подтверждение связь Навои и Физули. В заключение отмечено, что азербайджанско-узбекские литературные связи не должны ограничиваться лишь влиянием творчества Физули на узбекскую литературу, а необходимо изучить влияние творчества Навои на азербайджанскую литературу, в том числе на наследие Физули, стать предметом исследования отношения предшественников и преемников, примечательные в творчестве обоих художников слова.
**Ключевые слова:** Навои, Физули, «Хамсэ», Диван, предшественник, преемник